**1. Ümumi**

1.1. Ünvanı **Vana-Lõuna tn 15, 10134 Tallinn, Estonia**, qeydiyyat kodu **14532901 (Bolt)** olan **Bolt Operations OÜ "Bolt Rewind 2023"** Marketinq kampaniyasının **(Kampaniya)** təşkilatçısıdır.

1.1.1. Ünvanı Prosta 67, 00-838 Warsaw, qeydiyyat kodu **0000981464** olan Bolt Rides PL sp. z o.o Kampaniyanın Polşadakı təşkilatçısıdır

1.1.2. Ünvanı AZ1025, Bakı Şəhəri Xətai Rayonu, Xocalı prospekti, ev.55, qeydiyyat kodu 1503463041 olan Bolt Services AZ MMC Kampaniyanın Azərbaycandakı təşkilatçısıdır

1.2. **Kampaniya iki formada təşkil edilib:**

a. form vasitəsilə ideya təqdimatı

b. Prizli müsabiqədə iştirak edilməsi

1.3. Kampaniya 18 dekabr 2023 - 14 yanvar 2024-cü il (GMT +3) (daxil olmaqla) tarixləri arasında həyata keçiriləcək **(Kampaniyanın müddəti)**.

1.4. Azərbaycan, Belçika, Xorvatiya, Kipr, Çex Respublikası, Estoniya, Finlandiya, Fransa, Almaniya, Latviya, Litva, Malta, Hollandiya, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, İspaniya, İsveç, Ukrayna, Avstriya, Gürcüstan, Macarıstan, Qana, Keniya, Nigeriya, Cənubi Afrika Respublikası, Tanzaniya və Paraqvayda yaşayan, yaşı 18 və ya daha yuxarı olan (yaxud vətəndaşı olduğu ölkənin vətəndaşlıq hüquqlarının hamısına malik olan), fərdi qaydada sürücü sifarişi üçün şəxsi Bolt tətbiqi hesabına malik olan şəxslər (İştirakçılar) Priz üçün mübarizə apara və Qalib olaraq seçilə bilərlər.

1.5. Bütün İştirakçılar üçün məcburi olan Kampaniya proseduru cari Şərtlər və Qaydalarda, eləcə də Kampaniyanın reklam xarakterli və əlavə materiallarında göstərilmiş şərtlərə əsasən müəyyən edilmişdir.

1.6. Kampaniya üçün əvvəlcədən qeydiyyatdan keçmək tələb olunmur. İştirakçının Kampaniyada iştirak etməsi onun müvafiq Formanın tələb olunan yerlərinin doldurması və təqdim etməsi ilə müəyyən edilir. Kampaniya Formasının doldurulması və təqdim edilməsi Kampaniyanın Şərtlər və Qaydalarının qəbul edilməsi deməkdir.

1.7. Bolt-un işçiləri və onların ailə üzvləri Qalib olaraq seçilə bilməzlər.

1.8. Bu Kampaniya lotereya və ya hər hansı formada olan qumar oyunu deyildir.

1.9. Orijinal ideyanın Formada təqdim edilməsi ilə İştirakçı Bolt-a, Bolt tərəfindən İştirakçıya hər hansı kompensasiya və ya müəllif haqqı ödənilmədən (İştirakçının Qalib olaraq seçildiyi və birdəfəlik Priz üçün uyğun olduğu hal istisna olmaqla) bu ideyanın istənilən vaxt Bolt-un istədiyi qaydada həyata keçirməsi, uyğunlaşdırması, digər ideyalarla kombinə etməsi hüququnu verir.

**2. Priz**

2.1. Şəhərin yaxşılaşdırılması üçün ən yaxşı ideyanı təklif edən İştirakçı Bolt-un daxili münsiflər heyəti tərəfindən və heyətin istədiyi qaydada Qalib olaraq seçiləcək, Bolt tətbiqində fərdi qaydada sürücü sifarişi xidmətləri üçün aşağıdakı 2.2 bölməsində təsvir edildiyi kimi promo kod əldə edəcək (Priz) və onun qalib ideyası Bolt tərəfindən Bolt-un seçdiyi yerdə mövcud olduğu və ya uyğunlaşdırılmış formada həyata keçiriləcək.

2.2. Priz Bolt-dan fərdi qaydada sürücü sifarişi üçün endirimlər təklif edən və Qalibə göndərilməsindən sonra 24 ay ərzində qüvvədə olacaq promo koddur. Promo kod yalnız hansı ölkə üçün buraxılmışsa, orada istifadə edilə bilər. Promo kod müəyyən edilmiş səfər sayının tam qiymətinə edilmiş çox sayda endirim təklif edir. Səfərin qiyməti endirimdən aşağıdırsa, endirim səfərin tam qiymətinə tətbiq edilir və istifadə edilməmiş endirim başqa səfərə və ya başqa hər hansı yolla tətbiq edilə bilməz. Səfərin qiyməti endirimdən yuxarıdırsa, endirim səfərin tam qiymətinə tətbiq edilir və səfərin qiymətinin qalan

məbləğinin ödənişi sərnişin tərəfindən onun seçdiyi üsulla həyata keçirilir. Prizin promo kodunun ümumi qiyməti və ölkələr üzrə müvafiq endirimlər aşağıdakı kimidir (aşağıdakı siyahıda yer almayan ölkələrdən daxil olan Formalar Priz üçün müsabiqədə iştirak edə bilməzlər):

a. Azərbaycan: ümumi promo kodu məbləği 2000₼ (1000 səfər üçün 2₼-a qədər endirim təklif edilir)

b. Avstriya, Belçika, Kipr, Finlandiya, Fransa, Hollandiya: ümumi promo kodu məbləği 1000€ (100 səfər üçün 10€-a qədər endirim təklif edilir)

c. Xorvatiya, Estoniya, Almaniya, Latviya, Litva, Malta, Portuqaliya, Slovakiya, İspaniya: ümumi promo kodu məbləği 1000€ (200 səfər üçün 5€-a qədər endirim təklif edilir)

d. Çex Respublikası: Ümumi promo kodu məbləği 25000 Kč (250 səfər üçün 100 Kč-a qədər endirim təklif edilir)

e. Gürcüstan: ümumi promo kodu məbləği 3000 ლ (600 səfər üçün 5 ლ-a qədər endirim təklif edilir)

f. Qana: Ümumi promo kodu məbləği 13000 GH₵ (1000 səfər üçün 13 GH₵-a qədər endirim təklif edilir)

g. Macarıstan: Ümumi promo kodu məbləği 400000 Ft (160 səfər üçün 2500 Ft-a qədər endirim təklif edilir)

h. Keniya: Ümumi promo kodu məbləği 160000 Ksh (800 səfər üçün 200 Ksh-a qədər endirim təklif edilir)

i. Nigeriya: ümumi promo kodu məbləği 850000 ₦ (500 səfər üçün 1700 ₦-a qədər endirim təklif edilir)

j. Norveç: ümumi promo kodu məbləği 12000 kr (120 səfər üçün 100 kr-a qədər endirim təklif edilir)

k. Paraqvay: ümumi promo kodu məbləği 8000000 ₲ (800 səfər üçün 10000 ₲-a qədər endirim təklif edilir)

l. Polşa: ümumi promo kodu məbləği 5000 zł (500 səfər üçün 10 zł-a qədər endirim təklif edilir)

m. Rumıniya: ümumi promo kodu məbləği 5000 lei (500 səfər üçün 10 lei-ə qədər endirim təklif edilir)

n. Cənubi Afrika Respublikası: Ümumi promo kodu məbləği 20000 R (500 səfər üçün 40 R-ə qədər endirim təklif edilir)

o. İsveç: ümumi promo kodu məbləği 12000 kr (120 səfər üçün 100 kr-a qədər endirim təklif edilir)

p. Tanzaniya: Ümumi promo kodu məbləği 3000000 TSh (1500 səfər üçün 2000 TSh-a qədər endirim təklif edilir)

q. Ukrayna: ümumi promo kodu məbləği 400000 ₴ (800 səfər üçün 50 ₴-a qədər endirim təklif edilir)

2.3. Priz Qalibə yalnız Qalib Bolt-un müraciətinə 30 (otuz) təqvim günü ərzində cavab verdikdən və Priz promo kodunun hansı ölkə üçün buraxılmasını istədiyini təsdiqlədikdən sonra Formada təqdim edilən e-poçt vasitəsilə verilə bilər.

2.4. Priz nağd şəkildə ödənilməyəcək və ya kompensasiya edilməyəcək. Prizin hər hansı şəkildə
əvəzlənməsi və ya mübadilə edilməsi mümkün deyildir və Bolt Prizin verilməsi ilə bağlı hər hansı xərci kompensasiya etmir.

2.5. Qalibin Prizi əldə etməsi ilə bağlı həyata keçirəcəyi hər hansı gizli ödəniş yoxdur.

2.6. Bir İştirakçının dəfələrlə qalib gəlməsi mümkün deyildir. Bolt Kampaniya zamanı birdən çox Qalibin seçilməsi hüququnu özündə saxlayır.

**3. Qalibin seçilməsi**
3.1. Qalib Bolt-un daxili münsiflər heyəti tərəfindən və onun öz qərarına əsasən seçiləcək. Qalib seçilməzdən əvvəl Formada ideya təqdim etmiş istənilən İştirakçı ilə ideyanın təəffüratları və ya onun həyata keçirilməsi ilə bağlı olaraq Bolt tərəfindən əlaqə saxlanıla bilər.
3.2. Qalib ilə 31 mart 2024-cü il (GMT +3) tarixinə qədər Formada qeyd edilmiş e-poçt vasitəsilə əlaqə saxlanılacaq və sonra o, Bolt-un sosial mediası və digər rabitə kanal(lar)ı vasitəsilə elan ediləcək.
3.2.1. Bolt hər hansı İştirakçının bildirişi üçün (hansı ki, Qalib ola biləcək şəxs tərəfindən hər hansı səbəbdən itirilmiş, təyinatı üzrə çatdırılmamış və ya alınmamışdır) məsuliyyət daşımır. İlkin e-poçt göndərildikdən sonrakı 30 (otuz) gün ərzində Qaliblə əlaqə saxlanıla bilməzsə və/və ya o, e-poçt ünvanını təsdiqləmək üçün cavab verməzsə, Qalib Prizə sahib olmaq hüququnu itirmiş hesab ediləcək. Bu halda, Bolt-a yenə də Qalibin ideyasını həyata keçirməsinə davam etməyə icazə verilir. Prizə sahib olmaq hüququ itirildiyi halda, Bolt başqa Qalib seçmək hüququnu özündə saxlayır.
3.3. Bolt Qalibin adını və onun ideyasını, bu məlumatın Forma vasitəsilə təqdim edilməsi istisna olmaqla, Qalibin əlavə təsdiqləməsi olmadan Bolt-un bloqunda, Bolt-un veb-saytında dərc etmək, eləcə də müştərilərlə və ictimaiyyətlə əlaqələr zamanı, habelə e-poçtlarda və/və ya sosial media kanallarında qeyd etmək hüququnu özündə saxlayır.
**4. Qadağan edilmiş fəaliyyətlər**
4.1. İştirakçı hər hansı dələduzluq, yaramaz və ya qanunsuz fəaliyyət, Bolt-a aydın olmayan fəaliyyət, yaxud bilərəkdən və ya bilməyərəkdən qaydaları pozan, yaxud Kampaniya ilə bağlı hər hansı hiyləgərlik ehtiva edən fəaliyyətlə məşğul olmayacaq.
4.2. İştirakçı Bolt-a yanlış və ya yanıldıcı məlumat (yaş, vəzifə daşıma səlahiyyəti və s. daxil olmaqla) verməyəcək.
4.3. İştirakçı, həmçinin aşağıda qeyd edilən xüsusiyyətlərə malik olan materialları göstərməyəcək və ya ötürməyəcək (birbaşa və ya dolayı yolla, məsələn, istinad keçidi və ya hər hansı başqa məlumatlandırma vasitəsilə):
4.3.1. uyğun olmayan, qeyri-etik, təhdidedici, təhqiredici və ya başqasının məxfi işinə qarışan, yaxud başqasını bezikdirən, narahat edən və ya usandıran;
4.3.2. hər hansı şəxsi təngə gətirən, qanını qaraldan, kefini pozan, həyəcanlandıran və ya zəhləsini tökən;
4.3.3. hər hansı şəxsi təqlid edən, yaxud İştirakçının şəxsiyyəti və ya hər hansı şəxslə münasibəti barədə yanlış məlumatlandıran;
4.3.4. bu cür materialın Bolt tərəfindən verilmiş olması təəssüratını yaradan (İştirakçıya Bolt tərəfindən xüsusi olaraq bu məqsədlə verilməsi istisna olmaqla); yaxud
4.3.5. Bolt-un nüfuzuna xələl gətirən.
**5. Öhdəliklər**
5.1. Kampaniyada iştirak etməklə, İştirakçılar Kampaniyanın Şərtlərini və qaydalarını oxuduqlarını və onları qəbul etdiklərini təsdiqləmiş olurlar.
5.2. Fors-major halları baş verdiyi halda, Bolt-un əvvəlcədən bildirmədən və ya nəticələri nəzərə almadan Kampaniyanı dayandırmaq hüququ vardır. Mümkün olduqda, Bolt bu cür dayandırma barədə Bolt-un veb-saytı, müştəri məlumatlandırma xidmətləri, e-poçtlar və/və ya sosial media kanalları vasitəsilə bildirişi təmin edir.
5.3. Bolt Şərtlər və qaydalara birtərəfli olaraq dəyişikliklər və əlavələr edilməsi (bu barədə əvvəlcədən məlumatlandırmadan) daxil olmaqla, Kampaniya ilə bağlı hər hansı qərar qəbul etmək hüququnu özündə saxlayır. Bolt Kampaniya barədə bu cür qərarları Bolt-un veb-saytı, müştəri məlumatlandırma xidmətləri, e-poçtlar və/və ya sosial media kanalları vasitəsilə

dərc edəcək.
5.4. İştirakçı Kampaniyanın Şərtlərini və qaydalarını pozduğu halda, Bolt-un İştirakçını Kampaniyadan kənarlaşdırmaq (əvvəlcədən xəbər vermədən) hüququ vardır.
5.5. Bolt İştirakçının Kampaniyada iştirak etməsinə mane olan, üçüncü tərəfin səbəb olduğu hər hansı yanlışlıq üçün məsuliyyət daşımır.

**6. Məxfilik**

6.1. Kampaniya zamanı Bolt GDPR Maddə 6.1 (b)-yə uyğun olaraq Kampaniyanın şərtlərinə əməl edən Qalibi müəyyən etmək və elan etmək üçün İştirakçının şəxsi məlumatlarını emal edir.
6.2. Emal edilən şəxsi məlumatlara yalnız İştirakçının Kampaniyanın Formasında təqdim etdiyi, onun adı, şəhər və ölkəsi, habelə əlaqə məlumatları kimi şəxsi məlumatları daxildir.
6.3. Bolt İştirakçının şəxsi məlumatlarını Bolt-un nəzdində olan digər qurumlar, onlayn buludda saxlama xidmətləri təchizatçıları və digər vacib İT xidmətləri ilə paylaşa bilər. Dövlət orqanlarından qanuni tələb aldığı halda, Bolt İştirakçının şəxsi məlumatlarını onlarla da paylaşmalı ola bilər.
6.4. Bolt İştirakçının məlumatlarını Aİ və ya AİB ölkələri xarici ilə paylaşdığı halda, İştirakçının şəxsi məlumatlarının bu cür ötürülməsi yalnız Avropa Komissiyası tərəfindən qəbul edilmiş müvafiq qərara əsasən və ya standart müqavilə şərtləri kimi müvafiq təhlükəsizlik qaydalarına əməl edilməsi ilə həyata keçiriləcək. Təhlükəsizlik qaydaları barədə məlumat üçün bu ünvana müraciət etmək olar: privacy@bolt.eu.
6.5. İştirakçının şəxsi məlumatlara əlçatanlığının təmin edilməsi və onların düzəldilməsi və ya silinməsi, yaxud şəxsi məlumatların emalına məhdudiyyətlərin qoyulması, onların emalına etiraz edilməsini tələb etmək hüququ, habelə məlumatlarını əldə etmək və müxtəlif xidmətlərdə istifadə etmək hüququ vardır. İştirakçının şəxsi məlumatları razılıq əsasında emal edildiyi halda, İştirakçının onları istənilən zaman geri götürmək (onların geri götürülməsindən əvvəlki razılığa əsasən emalın qanuniliyinə təsir etmədən) hüququ vardır. Məxfiliklə bağlı hər hansı həll edilməmiş məsələ olduğu halda, İştirakçının məlumatların qorunması üzrə quruma şikayət etmək hüququ vardır.
6.6. Bolt-un emal prosedurları ilə bağlı hər hansı sual üçün İştirakçı Bolt Operations OÜ, Vana-Lõuna tn 15, Tallinn 10134 ünvanına yazaraq Bolt ilə əlaqə saxlaya bilər. İştirakçı privacy@bolt.eu ünvanı vasitəsilə Bolt-un Məlumatların qorunması üzrə əməkdaşı ilə əlaqə saxlaya bilər.
6.7. Bolt İştirakçının Kampaniya üçün təqdim edilmiş şəxsi məlumatlarından Qalib elan edilənə qədər istifadə edəcək, lakin bu, 5 aydan çox çəkməyəcək.
6.8. Qalib elan edildikdə, Bolt onun adını və ideyasını Kampaniyanın nəticələrinin reklam tədbiri olaraq Bolt-un veb-saytlarında, İctimaiyyətlə əlaqələr üçün məlumatlandırma vasitələrində, e-poçtlarda və sosial media kanallarında dərc edə bilər.
6.9. İştirakçı Kampaniyada üçüncü şəxsin məlumatlarından istifadə edərək iştirak etdiyi halda, İştirakçı, onun bu məlumatları müvafiq məxfilik qanununa əsasən Bolt-la paylaşmağa müvafiq hüquqi əsasının olduğunu təsdiqləməlidir.

**7. Bolt ilə əlaqə**

7.1. Kampaniyanın təşkil edilməsi ilə bağlı bütün şikayətlər, suallar Kampaniya müddətində Bolt-a giveaways@bolt.eu e-poçtu vasitəsilə, yaxud Bolt Operations OÜ, Vana-Lõuna tn 15, Tallinn, 10134 ünvanına yazmaqla təqdim edilməlidir. Bolt Kampaniya müddəti keçdikdən sonra Kampaniya ilə bağlı göndəriləcək şikayətlərə baxmayacaq.